# ŞÜKÜROV ŞAHLAR ƏVƏZ OĞLU



17 may 1952-ci ildə Kəlbəcər rayonunun Zülfüqarlı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna (indiki İqtisad Universiteti) daxil olmuşdur. 1972-ci ildə təhsilini başa vuraraq, ordu sıralarına yollanmışdır. Ordudan tərxis olunduqdan sonra Bakıda islah əmək müəssisələrindən birində çalışmışdır. Daha sonra fəaliyyətini Ucar rayon Daxili İşlər Şöbəsində davam etdirmişdir. 1986-cı ildə Rostov Ali Polis Akademiyasını bitirmiş, 1987-ci ildə Zərdab rayon DİŞ-də əməliyyat işləri üzrə rəis müavini təyin edilmişdir. Polis mayoru rütbəsinə qədər yüksəlmişdir. Ş.Şükürov tez-tez qaynar nöqtələrdə olur, erməni yaraqlılarına qarşı aparılan əməliyyatlarda fəal iştirak edirdi. 1990-cı il iyul ayının 11-də hərbi qulluqçuların müşayiətiylə Tərtər – Kəlbəcər yolu ilə hərəkət edən maşın karvanı Ağdərə ərazisindən keçərkən düşmənin qəfil hücumuna məruz qalır. Bu qeyri-bərabər döyüşdə Şükürov Şahlar qəhrəmancasına həlak oldu. Kəlbəcər rayonunun Zülfüqarlı kəndində dəfn edilmişdir. Ailəli idi. İki övladı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə polis mayoru Şükürov Şahlar Əvəz oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. Zərdab rayonunda adına məktəb və küçə var.